

## *GÜLAYIM KALIBEKOVA*
(ГҮЛАЙЫМ КАЛЫБЕКОВА) –

*1991-ci ildə Narında doğulub.*
*2009-cu ildə orta məktəbi bitirib.*
*Müəllim ixtisaisı üzrə ali təhsil alıb (2014).*
*Uluslararası "Nur borbor"*
*Yaradıcı Gənclər Akademiyasının üzvüdür.*
*"Xəyal uçuşu" ("Kıyal çabıttan")*
*adlı şeirlər kitabı gün üzü görüb.*
*Hazırda "Ledi.kg" saytının redkatorudur.*

## *KÜLƏK*

Uzaq nədir, yaxın nədir, bilməyən,
Qədərindən, öz yolundan dönməyən,
O küləkdir, azadlığın simvolu,
bir fəsil var
amma
onu sevməyən...

Yaşayar o bəslədiyi arzunu,
Getdiyi heç yeri deməz kimsəyə;
Göz qırpınca gəzər bütün dünyanı,
Yolunu da salar üzü göylərə.

Yeri-göyü barmağında fırladar,
Ona nə var, dağları da oynadar;
Qanad çalar səmalarda quş kimi
Gen çayları, dənizləri adlayar...

Fəsillərlə bəhsə girib yarışsam,
ümid dolu sabahlara çataram;
Azadlığı küləyə də arzular,
buludlara yaxşı qismət yazaram...

## *MƏN*

Mən yaramaz deyiləm,
Ağıllı da deyiləm;
Canam,
        canan deyiləm,
Doğmalarma gərəyəm.

Mən bir coşğun dağ çayına yatağam,
Səhər-axşam xeyrə qənşər axıram;
Ayrılıq qoxuyan eşq nəğməsiyəm,
Səadətin qibləsinə yaxınam.

Doğrulara ələyəm,
Oğrulara kələyəm;
Niyyətim yaxşılıq,
        sevgi, gözəllik
Vəhşəti silməyə dəli küləyəm.

Mən sahiləm, mən bucağam,
Bəlkə bütöv bir zərrəyəm;
Ağılların ağılıyam,
Filosofam, fəlsəfəyəm...

Mən yaramaz deyiləm,
Ağıllı da deyiləm;
Ədalətə söykənmişəm,
Bu dünyanın sirlərini çözürəm...

## *AĞ YAĞIŞ*

Öz neyini çalır təbiət yenə,
Yağışın səsini eşidirəm mən.
Hardasa bir adam yuxularında
Ömrümə səadət, sevgi bəxş edir.

Tökülür ağ damcılar,
tökülür aram-aram,
Sevgi yağır yastığına – hələ yatan adamın.
bu yağışla oyanar, yatanlar – ümidvaram,
İkimizin birlikdə görəcəyi gün yaxın...

Sizinləyəm, ağ damcılar,
yuxusunda sevgilim,
çiçək toplar mənim üçün...
Toxunmayın qəlbinə,
Məndən öncə qoxlamayın,
toxunmayın gülünə.

Ağ damcılar asta-asta danışsın,
Buludlar çəkilsin göyün üzündən;
Diləklərə dümağ ümid gətirsin,
Mənə xəbər versin məhəbbətimdən.

Təbiətin komuzu,
neyi çalınır yenə,
Yağış səsi duyulur.
Mənə ilham verir, mənə güc verir
Pəncərəmin nazıyla oynayan bu musiqi...

## *YALNIZLIĞA*

Ün yetməyən səssiz bir dunyadayam,
Nə görən var, nə bir bilən yerimi.
Yalnızlığa dəli kimi vurğunam,
Taleyim əzəldən çəkir rəsmimi.

Mərhəməti səndə duyandan sonra
Səninlə görüşmək səadət oldu.
Kimsə görməz ruhum necə rahatdı,
sükutlar içində,
qəlb fərəh dolu...

*Tək sirdaşım tənhalıqdı,*
*Sənsiz hər şey yarımçıqdı;*
*İşim-gücüm yalnızlıqdan*
*ilham alıb yüz il yaşar*
*şeirləri yaratmaqdı...*

(Çevirən: **Taleh MANSUR**)